BIRINCI BEYNƏLXALQ TÜRKOLOJI QURULTAYDA ORTAQ TÜRK DILI UĞRUNDA MÜBARIZƏ

Yeganə Qürbət qızı Qəhrəmanova
ADPU-nun Müasir Azərbaycan dili
kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru
yegane.qehremanova.1976@mail.ru
https://orcid.org/0000-0003-3730-7674

Xülasə

Birinci Beynəlxalq Türkoloji Qurultay geniş coğrafi ərazilərdə məskunlaşmış türk xalqlarının mədəni-siyasi həyatı üçün qlobal bir çox məsələlərin müzakirəsi və həyata keçirilməsi baxımından əhəmiyyət kəsb edir. Türk xalqlarının yaxın gələcəyinə yönələn ortaq türk dili və bu ideyanın reallaşdırılmasının ilkin mərhələsi olan ortaq əlifbaya keçid qurultayın ən böyük uğuru idi. Qurultayda latın əlifbasına keçidlə bağlı elmi-metodoloji bazanın və prinsiplərin hazırlanması, əlifbaya komitəsinin yaradılması bu sahədə başlanmış işin əvvəlcədən real nəticələrini görməyə imkan verirdi.

Bununla yanaşı, qurultayda müzakirə olunan ortaq imla, terminologiya, tədris-metodika, türk dillərinin öz daxilində qohumluq əlaqələrinin üzə çıxarılması və s. məsələlər də bu və ya digər şəkildə ortaq türk dili ideyasının reallaşmasına xidmət edirdi. Müzakirə olunan məsələlərin əhatə dairəsi və mövzular göstərirdi ki, qurultay ortaq dil layihəsi üzərində geniş hazırlıq işləri aparmış, məsələlər əvvəlcədən nəzəri olaraq hazırlanmışdır. Müzakirələr zamanı belə bir nəticə hasil olurdu ki, tarixən eyni kökdən olan türk dilləri üçün siyasi, iqtisadi, mədəni əlaqələrinin genişləndiyi, nəqliyyat və digər kommunikasiya vasitələrinin çoxaldığı, təhsil sahəsində yeniliklərin yarandığı bir dövrdə ortaq türk ədəbi dili ideyası gerçəkləşdirilə bilər.

Məqalədə məsələyə baxış və müzakirələrdə irəli sürülən fikir və təkliflər, yol verilən yanlışlıqlar təhlil edilir, günümüzdə də aktual olan türk dillərinin ortaq ünsiyyəti baxımından əhəmiyyətli təkliflər irəi sürülür.

Açar sözlər: türkoloji qurultay, ortaq dil, latın qrafikası, ortaq əlifba, türk dilləri

THE STRUGGLE FOR A COMMON TURKISH LANGUAGE AT THE 1ST INTERNATIONAL TURKOLOGICAL CONGRESS

Summary

The First International Turkological Congress is important in terms of discussing and implementing many global issues for the cultural and political life of the Turkic peoples settled in vast geographical areas. The transition to a common Turkic language, which is aimed at the near future of the Turkic peoples, and the transition to a common alphabet, which is the initial stage of the realization of this idea, were the greatest success of the congress. The preparation of the scientific and methodological basis and principles related to the transition to the Latin alphabet at the congress, the establishment of an alphabet committee made it possible to see the real results of the work begun in this area in advance.

In addition, the issues discussed at the congress, such as common spelling, terminology, teaching and methodology, revealing the kinship relations between Turkic languages, etc., also served the realization of the idea of a common Turkic language in one way or another. The scope and topics of the issues discussed showed that the congress had carried out extensive preparatory work on the common language project, and the issues had been theoretically prepared in advance. During the discussions, it was concluded that the idea of a common Turkish literary language could be realized in a period when political, economic, and cultural relations between the Turkic languages, which have historically had the same root, have expanded,

transportation and other means of communication have increased, and innovations have emerged in the field of education.

The article analyzes the views and proposals put forward in the discussions, the mistakes made, and puts forward important proposals in terms of common communication between the Turkic languages, which are still relevant today.

Keywords: Turkological congress, common language, Latin script, common alphabet, Turkic languages

GİRİŞ

1926-cı il fevralın 26-dan martın 5-ə qədər Bakı şəhərində keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının həyatında böyük ictimai-siyasi, elmi-mədəni rola malik olmuşdur. Bu qurultayın Bakıda keçirilməsi ölkəmizin əlverişli coğrafi ərazidə yerləşməsi ilə yanaşı, təbii ki, daha çox ölkəmizdə formalaşmış geniş elmi və türkoloji mühitin mövcudluğu ilə bağlı idi. Hələ 1920-ci ildə Bakıda Şərq xalqlarının I Qurultayı keçirilmişdi. Bununla da ölkəmiz türk-müsəlman dünyasında geniş intellektual potensialı və əhəmiyyətli mövqeyi ilə özünü təsdiq etmişdi. Bu mənada belə bir əhəmiyyətli tədbirin Bakıda keçirilməsi təsadüfi deyildi, Bakının bu ev sahibliyinə, sözün əsl mənasında, mənəvi haqqı çatırdı. Tarixdə ilk dəfə türk xalqları məhz Bakıda Birinci Türkoloji Qurultay zamanı belə geniş tərkibdə və belə mötəbər toplantıda bir araya gəlmiş, qədim və müasir türk dilləri ilə bağlı ciddi elmi-tarixi-siyasi əhəmiyyət kəsb edən məsələləri müzakirə etmişdilər. Tədqiqatçıların, haqlı olaraq qeyd etdiyi kimi, *"...Qurultayda müzakirə olunan məsələlər türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni inteqrasiyasında yeni bir mərhələnin təməlini qoyan ən əlamətdar hadisələrdən biridir. Azərbaycanlı ziyalıların Şərq xalqlarının Qurultayında və Birinci Türkoloji Qurultayda fəal iştirakı ölkəmizdə yalnız dilçilik sahəsində deyil, həm də ədəbiyyat, tarix, mədəniyyət, folklor, etnoqrafiya və maarifçilik sahəsində də böyük elmi və yaradıcı qüvvələrin yetişib formalaşdığını nümayiş etdirir" (8,s.31).*

I Türkoloji Qurultayın gedişində ortaq türk dili ilə bağlı məsələlərin müzakirəsi

I Türkoloji Qurultayın keçirilməsini türk xalqları üçün mənəvi, elmi, mədəni və fundamental tarixi əhəmiyyət kəsb edən hadisə kimi qiymətləndirən E.İbrahimovun sözlərincə desək, "*Türkologiyanın inkişaf istiqamətini müəyyən edən, türk xalqlarını ortaq mədəniyyət və dil platformasında birləşdirən bu intellektual təşəbbüs – 1926-cı il fevralın 26-dan martın 6-dək Bakı şəhərində İsmailiyyə sarayında keçirilən Birinci Türkoloji Qurultay XX əsrdə türk xalqlarının mədəni inteqrasiyasında yeni bir mərhələnin təməlini qoymuş, geniş coğrafi məkanda yaşayan müxtəlif türk toplumları üçün taleyüklü məsələlərin müzakirə olunduğu və elmi əsaslı həll yollarının işlənib hazırlandığı tarixi bir tribunaya çevrilmişdir. Bu qurultay təkcə Azərbaycan elmi mühitində deyil, bütün Türk dünyasında türkologiya elminin sistemli inkişaf mərhələsini formalaşdırmaqla türk xalqlarının dillərinin, ədəbiyyatının, etnoqrafiyasının və tarixi-mədəni irsinin sistemli şəkildə öyrənilməsi üçün nəzəri və praktik baza yaratmışdır" (7.s.12).*

Başqa sözlə desək, *"Türk dünyası sistemində mədəni inteqrasiyanın və maarifçiliyin nəzəri əsaslarının və təcrübi-əməli imkanlarının müəyyən edilib istiqamətləndirilməsində Birinci Türkoloji Qurultay böyük rol oynamışdır. Birinci Türkoloji Qurultayın 17 iclasında dinlənilib müzakirə edilən 38 məruzədə humanitar və ictimai elmlərin, türkologiyanın ən aktual problemləri əhatə olunmuş və konkret təkliflər irəli sürülmüş, mühüm qərarlar qəbul edilmişdir. Bu planetin bərabərhüquqlu üzvü olan türk xalqlarının milli-mənəvi varlığının və gələcəyinin qurultayıdır" (7, s.13).*

Qurultayda müzakirə olunan məsələlərin hər birini nəzərdən keçirdikdə nəinki XX əsrin əvvəlləri, həmçinin bu günümüz baxımdan da aktual olduğu görünməkdədir. Burada müzakirə olunmuş əlifba, imla problemi, terminologiya, tədris-metodika məsələləri, türk dillərinin tarixi və ulu dil nəzəriyyəsi, eyni kökdən törəyən və qonşu dillərin bir-birilə qarşılıqlı əlaqəsi, eləcə də digər məsələlər türk dillərinin ümumi ədəbi dil problemləri olmaqla yanaşı, ayrıca ortaq ədəbi dil məsələsinin müzakirəsi də xüsusi əhəmiyyətə malikdir. İlk növbədə, ortaq əlifba və orfoqrafiya

məsələləri, digər tərəfdən ortaq elmi terminologiyanın sistemləşdirilməsi, türk dillərinin təsnifi, tarixi, dialektoloji, arxeoloji və etnoqrafik araşdırmaları əhatə etməsi ilə qurultay ilk dəfə *"türkologiyada multidissiplinar yanaşmanın da əsasını qoymuşdur. Eyni zamanda Türk dünyasında ortaq dil, mədəniyyət və elmi dəyərlərin təşəkkülünü stimullaşdıraraq regional və transregional əlaqələrin inkişafına ideoloji və akademik zəmin hazırlamışdır. Bu mənada, Birinci Türkoloji Qurultay elmi konsepsiyası ilə yanaşı, türk xalqlarının identikliyinin və mədəni birliyinin gücləndirilməsi istiqamətində praktik təşəbbüs kimi də strateji əhəmiyyət daşıyır" (7, s.18).* Ona görə də Birinci Türkoloji Qurultaydan danışarkən ən çox diqqəti cəlb edən, günümüz baxımından da ən mühüm məsələ ziyalıların ortaq türk dili uğrunda mübarizəsidir. Bu mübarizənin birinci istiqaməti ortaq türk əlifbasına keçid idisə, digər tərəfdən ortaq terminologiya, ortaq orfoqrafiya, ortaq tədris kimi məsələlər də digər istiqaməti təşkil edirdi.

Əlifba uğrunda mübarizə ölkəmizdə XIX əsrin mücadiləsi kimi meydana çıxmış, M.F.Axundzadənin ciddi səylərinə baxmayaraq, həmin əsrdə reallaşdırıla bilməmişdi. Əslində Mirzə Fətəli Axundzadə ədəbiyyat sahəsində milli oyanışı başladan ilk mütəfəkkir idi. Təsadüfi deyil ki, ilk türkcə pyeslərin müəllifi kimi həm Z.Göyalp, həm də Y.Akçura M.F.Axundzadəni ilk türkçülərdən hesab etmişlər. Y.Akçuraya görə, ana dilində altı komediya yazmaqla "Axundzadə Mirzə Fətəli dildə felən türkçülük etmiş olur. " (1, s.60). Ərəb əlifbasının ilk dəfə dilimizin qanunlarına və səs sisteminə uyğun gəlmədiyini irəli sürən, iki dəfə ərəb əlifbası üzərində islahatlar həyata keçirib sonda ərəb əlifbasını heç cür dilimizə uyğunlaşdırmaq mümkün olmadığını, xalqın maaariflənməsinə mane olan bu əlifbanın yeni bir əlifba ilə əvəz edilməsinin vacibliyini göstərən məhz Axundzadə olmuşdur. M.F.Axundzadə milliyyətçiliyini göstərən faktlardan biri də məktublarında "xalqım" sözünü işlətməsidir. Azərbaycan türkcəsinin səs sisteminə uyğun gəlməyən və xalqın maarifsizliyinin əsas səbəbi hesab etdiyi ərəb əlifbasını latın qrafikalı əlifbaya dəyişmək üçün İstanbula səfər etsə də, mütəfəkkirə yardım etməyə söz verən şəxslər son nəticədə hansısa səbəblərdən ona yardım etməmiş və ya edə bilməmiş, ona görə də uğursuz İstanbul səfərindən sonra M.F.Axundzadə mənən çox sarsılmışdı. Ömrünün sonlarında rus dövləti tərəfindən siyasi cəhətdən şübhəli şəxs hesab edilmiş, evində axtarış aparılmış, əsərləri məhv edilmişdi. Lakin onun ideyaları yarımçıq qalmamış, 1926-cı ildə I Beynəlxalq Türkoloji Qurultayda qəbul edilən ortaq türk əlifbası məhz Axundzadənin təqdim etdiyi əlifbanın cüzi dəyişdirilmiş variantı idi.

XX əsrin 20-ci illərinə qədər bu yöndə aparılan işlər 1922-ci ildə Azərbaycanda Xalq Komissarlar Soveti yanında "Yeni türk əlifba komitəsi"nin yaradılmasına gətirib çıxarmış, bununla da ölkəmizdə latın əlifbasına keçid reallığa çevrilmiş, C.Məmmədquluzadənin baş redaktorluğu ilə "Yeni yol" qəzeti bu əlifba ilə nəşr olunmağa başlamışdı. 1924-1925-ci tədris ili birinci siniflərdə dərslərin yeni əlifba ilə keçirilməsi ilə yadda qalmışdı. Təbii ki, I Türkoloji Qurultayda da ən qızğın və mübahisə şəraitində gedən müzakirə əlifba məsələsi ilə bağlı oldu. Əlifba məsələsi beş iclasda müzakirə olunmuş, ciddi mövqe mübarizəsindən sonra, nəhayət ki, latınçılar ərəbçiləri üstələyərək səs çoxluğu ilə latın əlifbası qəbul olunmuşdu.

Qurultayda diqqəti cəlb edən əsas məsələlərdən biri də ortaq türk ədəbi dili ilə bağlı müzakirələr idi. Türk xalqlarında ədəbi dilin inkişafı ilə bağlı F.Köprülüzadə, Xakimov və digərlərinin məruzələri dinlənilmiş, müzakirələr aparılmışdır (3, s.34).

Qurultayda ortaq dil məsələsi yönündə fəal mövqe nümayiş etdirənlər çox idi. Qurultayın gedişində iki məruzə ilə çıxış edən Bəkir Çobanzadə üçüncü iclasda "Türk dillərinin yaxın qohumluğu", səkkizinci iclasda isə "Elmi terminologiyanın sistemi haqqında" məruzələrlə ilə çıxış etmişdi. T.Hacıyevin düzgün təsbiti ilə desək, *"Türkologiyada ilk dəfə Mahmud Kaşğaridən dərin elmi söhbət açan B.Çobanzadə "Divan"ın müddəa və faktlarından çıxış edərək, həmin dövrdən müasir zamanımıza qədər, ədəbi dil təzahürlərindən bugünkü canlı dialekt və şivələrə qədər türklərin yaxınlığından, türkcələrdə anlaşmanın olmasından və bu yaxınlıq və anlaşmanın tarixi şərtlərindən, qanunauyğunluğundan danışdı. Əslində bu mə'ruzəsi ilə o, Fuad Köprülüzadənin mə'ruzəsi ətrafında qalxacaq ümumi türk ədəbi dili müzakirəsi üçün elmi və faktoloji bünövrə yaratmış oldu" (4, s.19)*.

B.Çobanzadə yalnız ilk məruzəsi ilə qurultayda ortaq türk dili uğrunda mübarizənin başlanğıcını qoymaqla kifayətlənməmiş, bu istiqamətdə xüsusi mövqe nümayiş etdirmişdir. T.Hacıyev, haqlı olaraq göstərirdi ki, *"Türkologiyada ümumtürk dili məsələsində xüsusi bir Bəkir Çobanzadə mexanizmi var..."(5, s.3.)*

Məlumdur ki, ümumtürk dili və ortaq türk ədəbi dili ideyasının tarixi XIX əsrdən başlayan, I Türkoloji Qurultay zamanı yarım əsrdən artıq yaşı olan ideya idi. Belə bir ideyanın Birinci Türkoloji Qurultayda müzakirə predmeti olması, təbii ki, əhəmiyyətli hadisə idi. *"Tərəfdarların bir qismi bu ideyanı sadəcə alqışlayır, ancaq ona aparan yolu göstərmir. Yol göstərənlərin də təklifləri camaatı razı salmır, e'tirazlar doğurur, mübahisələrə səbəb olur. Mənim fikrimcə, "Elmi cəhətdən doğru – əsaslandırılmış, tarixi baxımdan mümkün olan yeganə konsepsiya prof. B.Çobanzadəninkidir. B.Çobanzadə ümumtürk ədəbi dilinin iqtisadi və mədəni faktorlarla şərtləndiyini göstərir*" (5, s.4).

Məsələyə münasibətdə T.Hacıyevin mövqeyini düzgün hesab etməklə B.Çobanzadənin fikirlərini təhlil etdikdə aydın olur ki, böyük mütəfəkkir türk xalqlarının ortaq ünsiyyətinin reallaşmasını iqtisadi həyatla təhsil kompleksinin birliyində görür. Bunun üçün məktəb təliminə xüsusi əhəmiyyət verən ortaq ədəbi dilin təbii və tədrici yolla yaranmasını məqsədəuyğun hesab etdiyindən məsələyə ehtiyatlı və diqqətli yanaşmanın vacibliyini vurğulayır. Ortaq türk dili yalnız yazı dili olmadığı, bədii, elmi, publisistik əsərlərin dili ilə yanaşı, şifahi ünsiyyət dili də olduğu üçün elm və siyasətin dilidir, deməli, bu dildə terminlərin ortaqlığı çox mühüm məsələdir. Bu baxımdan B.Çobanzadə ortaq türk ədəbi dilinin reallaşmasını yaş və intellektin artımı ilələlaqələndirir.

B.Çobanzadəyə görə, ortaq dil mövcud olan dillərdən birinin ümumi dil kimi götürülməsi ilə formalaşa bilməz. Bu ortaq dilin yaranmasında bütün türkcələrin iştirakı zəruri və təbii yolla həyata keçirilməlidir. Bu mexanizmin reallaşmasında isə, alimin fikrincə, iqtisadi və təhsil faktorları, şübhəsiz ki, mühüm yer tutmalı idi. *"Görünür, alim iki cəhəti nəzərə alıb: 1. Bütün türk xalqlarının zehni intellekti bir hazır dilə sığmaz, bu dil bütün türk soylarının intellektinin ümumiləşməsi olmalıdır - yeni, zəngin, hamısından yüksəkdə duran bir dil olmalıdır; 2. Mövcudlardan birini götürəndə başqa qardaşlarda ögeylik emosiyası dirçələ bilər" (5, s.5).*

B.Çobanzadəyə görə, ortaq terminlərin formalaşması 3 mərhələdə həyata keçirilə bilərdi:

1. İndiki ibtidai və ya ilk okul adlandırılan bir dərəcəli məktəblərdə yerli milli terminlərin işlənməsi məqsədəuyğundur. Məsələn; Azərbaycan və Türkiyə türklərinin su, qaraçayların suu, çuvaşların şıv, xakasların suğ, özbəklərin suv, başqırdların hıy kimi işlətdiyi eyni kökdən olan, yalnız fonetik fərqlərlə seçilən və bu fonetik özəllikləri türkcələrin səs qanunlarına uyğun müəyyənləşdirilən terminləri ibtidai sinif şagirdləri öz ata-anası və ətrafdakılar dediyi kimi yazsın və oxusunlar.

2. Orta məktəblərdə, yəni ikinci dərəcəli məktəblərdə artıq ümümtürk terminləri müəyyənləşməli, yəni su sözü ya türk dillərinin əksərində işləndiyi kimi, ya da fonetik-morfoloji daha mükəmməl variant əsasında ümumi termin kimi qəbul olunmalıdır. Alimin fikrincə, su terminin qəbulunun da öz problemləri var: sözün ən cilalı, daha çox işlənən nümunəsi "su" olsa da, türk dillərində söz sonun samitlə bitməsinin daha tipik morfonoloji hadisə olması nəzərə alınarsa, "suv" və ya "suğ" variantları önə çıxır. Belə olduqda söz dil komisyonlarınındır. Bu yolla orta məktəb səviyyəsindəa artıq elmi terminoloji bazası hazırlanar, hər bir elm sahəsində özbək, qazax, azəri, başqırd, türkmən şagirdləri bir-birini anlayar, hətta türk dünyası olimpiadalarına qatıla bilərlər.

3. Üçüncü dərəcəli, yəni ali məktəblərdə isə həmin ümumtürk bazası əsasında uluslararası (beynəlxalq) terminoloji sisteminə qoşularıq. Bu zaman artıq su termini hidrogen, hava termini oksigen terminləri ilə əvəz edilir. Bu halda, birincisi, bütün türkcələr eyni beynəlmiləl termini eyni mənbədən, yəni ya yunan, ya latın, ya da başqa bir Avropa dilindən götürməli, ikincisi, alınan sözlər hər türkcənin öz fonetik qabığında yox, bütün türk dillərində eyni yazılır və tələffüz edilir. Bununla da ayrı-ayrı türk xalqlarının tələbələri öz ixtisas sahələrində bir-birilərini anlamaq imkanı əldə etmiş olurlar.

Göründüyü kimi, B.Çobanzadə ortaq türk dilinə nail olmaq üçün ən vacib dil elementlərindən sayılan terminlərin ortaq və anlaşıqlı olmasının praktik yolunu göstərir, Avropa alimlərinin bu prinsiplə işlədikləri üçün anlaşmasında problem olmadığının qeyd edirdi. Onun fikrincə, dilimizdəki ərəb-fars terminlərini dildən çıxarmaq, onların yalnız elələrini saxlamaq lazımdır ki, kitab, məktəb, xalq sözləri kimi ümumxalq leksikonuna daxil olmuşdur. B.Çobanzadəyə görə, ana dilindən termin yaratmaq cəhdləri uğursuz olduğundan belə cəhdlərdən yayınmaq, Avropa mənşəli terminlərə üstünlük vermək lazımdır.

Türk dillərində ortaq terminlər mövzusunda H. Zeynallının, Odabaşının, Baytursun, Qeldiyev və digərlərinin də məruzələri olmuş, hər bir məruzəçi bu istiqamətdə işin sürətləndirilməsi zərurətindən danışmış, müxtəlif təkliflər irəli sürmüşlər.

Bütün bunlarla yanaşı, I Türkoloji Qurultayda türk dillərinin imla (orfoqrafiya) və tədris məsələləri də geniş şəkildə müzakirə edilmiş, bu istiqamətdə ortaq fəaliyyət göstərmək üçün yollar müəyyənləşdirilmişdir. Ana dilinin tədrisi məsələsində Avropa standartları ilə milli ənənnin birləşdiyi yeni metodlara üstünlük verilməsi istiqamətində işlərin aparılması məqsədəuyğun hesab edilmiş, Fərhad Ağazadənin orfoqrafiya ilə bağlı məruzəsi, irəli sürdüyü 9 maddədən ibarət tezis xüsusi ilə maraq doğurmuşdur. F.Ağazadə türk dillərinin orfoqrafiyası üçün fonetik prinsipi zəruri hesab edərək dilimizdəki bütün sözlərin, o cümlədən ərəbcədən alınan sözlərin istisnasız olaraq vahid bir qaydada yazılmasının vacibliyini vurğulamış, yeni qəbul edilmiş əlifbanın fonetik yazının bütün tələblərinə cavab verdiyini yüksək qiymətləndirmişdir. Onun fikrincə, türk dilləri üçün səmərəli orfoqrafiya lüğəti yaratmaq məqsədilə bütün türk-tatar dillərinin orfoqrafiyasını əhatə edən lüğətlərin tərtibi vacibdir.

Nəticə

Yuxarıda göstərilənlərdən aydın olur ki, hələ ilkin elementləri M.Füzulidən başlayan, əməli şəkildə M.F.Axundzadənin fəaliyyəti ilə ortaya çıxan əlifba islahatı məsələsi öz həllini tapmış, bütün türk dünyası üçün ortaq əlifbaya - latın qrafikasına keçilməsi haqqında qərar qəbul edilmiş və 1929-cu ildən başlayaraq reallaşdırılmışdır.

Türk dillərinin orfoqrafiyası sahəsində müzakirələrdə əsas prinsip kimi fonetik prinsip qəbul edilsə də, yeri gəldikcə morfoloji və tarixi-ənənvi prinsipə müraciət edilməsinin də zəruriliyi vurğulanmış, türk xalqları üçün ortaq lüğətlərin tərtibinin vacibliyi göstərilmişdir.

Ortaq terminologiya məsələsində ərəbləşmə, avropalaşma, türkləşmə, demoktatikləşmə kimi fərqli mövqelər ortaya çıxsa da, B.Çobanzadənin fikirləri daha çox tərəfdar toplamış, termin yaradıcılığında süniliyə yol verilməməsi, milli terminlərlə yanaşı zərurət olduqda ərəb-fars mənşəli terminlərin qorunması, ortaq şəkildə beynəlmiləl terminologiyaya yer verilməsi barədə razılığa gəlinmişdir.

Ana dilinin tədrisi məsələsində Avropa standartları ilə milli ənənnin birləşdiyi yeni metodlara üstünlük verilməsi istiqamətində işlərin aparılması məqsədəuyğun hesab edilmişdir.

Ədəbiyyat

1. Akçura Y. Türkçülüyün tarixi. Bakı, 2010
2. Babayev A. Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya. Bakı, 2016. s.82-83
3. Xəlilov B. Birinci Beynəlxalq Türkoloji Qurultay. Bakı, 1999
4. Hacıyev T. Birinci Türkoloji Qurultayda dil məsələləri /.“Bakı Universiteti Xəbərləri” elmi jurnalı. Bakı, 2006, № 2, s. 18-26.
5. Hacıyev T. I Türkoloji Qurultayda Bəkir Çobanzadənin fəaliyyəti. BDU-da görkəmli dilçi alim, ədib professor Bəkir Çobanzadənin anadan olmasının 120 illik yubileyinə həsr olunmuş “Bəkir Çobanzadə və türkologiyanın müasir problemləri” mövzusunda Respublika elmi konfransının materialları. 31 may 2013

6. Həbibbəyli İ. Birinci Türkoloji Qurultayın dərsləri və müasir çağırışlar. "Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans:Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" beynəlxalq konfransın materialları, I hissə, Bakı, 2016. S. 7-12.
7. İbrahimov E. Birinci Türkoloji Qurultayda ortaq əlifba, imla və ədəbi dil məsələləri. Qarabağ Universiteti, 2025
8. Məmmədova E. Birinci Türkoloji Qurultay və dil məsələləri. Elmi iş (humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal) 2019, №10/49 s.31-34